# GÖYÇAYLI QƏHRƏMAN

## HEÇ KƏS UNUDULMUR, HEÇ KƏS YADDAN ÇIXMIR!

**Böyük Vətən Müharibəsi başlayanda İsmayıl Göyçaydakı 9 nömrəli orta məktəbi təzəcə bitirmişdi. Həkim ailəsində dünyaya göz açan bu gəncin müharibə başlayanda 20 yaşı təzəcə tamam olmuşdu. Ali Baş Komandanın Səfərbərlik haqqında müraciətindən sonra o, könüllü olaraq rayon hərbi komissarlığına gəldi və silaha sarılaraq Vətəni müdafiəyə yollandı...**

Söhbət xan çinarları ilə tanınan, qonaqpərvər və igid, məğrur camaatı ilə seçilən Göyçayın cavan gənclərindən biri İsmayıl Əlibala oğlu Əliyevdən gedir. O, İsmayıl ki, onun barəsində ta-nınmış jurnalist-yazıçı Əfqan Əsgərov qələmə aldığı "Qartal əfsanəsi" kitabında çox ətraflı söhbət açıb, əlindən bir anlıq silahı yerə qoymayan bu həmvətənimizin igidliyi, qəhrəmanlığı haqqında istəkli oxucularına məlumat verib. Rus ədibi A.Şoloxovun "Partizanskimi tropami" kitabında da azərbaycanlı zabit İ.Ə.Əliyevin Rusiya torpağında azğın faşistlərə qan uddurmasından ətraflı bəhs olunur. Daha bir kitabda oxuyuruq: Azərbaycan oğulları sovet partizanları sırasında fəal döyüşmüşlər. Sovet İttifaqı Qəhrəmanı Liza Çaykinanın adını daşıyan və 1942-ci ilin oktyabrında Kalinin vilayətində yaranmış partizan briqadasında kapitan İ.Ə.Əliyev qəhrəmanlıqla döyüşmüşdür.

İsmayıl Rostov, Saratov, Stalinqrad, Ukraynanın bir sıra şəhər və qəsəbələri, Donbas, Xarkov, Kalinin vilayətləri, Moskva şəhəri uğrunda gedən ölüm-dirim müharibəsində çoxsaylı döyüşlər keçirmişdir. Bacarığını nəzərə alıb, onu Moskva şəhərindəki Qırmızı bayraqlı piyada məktəbinə göndərirlər. Kursu bitirən kimi yenidən döyüşən orduya gəlir. Zabit İ.Əliyev Moskva ətrafındakı döyüşlərdə böyük məharət və igidlik göstərir. Ölkə mətbuatı xüsusilə "Krasnoye znamya" qəzeti onun şücaəti haqqında yazılar dərc edir, Ali Baş Komandan tərəfindən ona tərifnamələr verilir.

İsmayıl Əliyev özünün hərbi biliyi, döyüş ustalığı ilə başçılıq etdiyi rota ilə birlikdə ad-san qazanır. Moskva ətrafındakı döyüşlərin birində o, ağır yaralanır. İsmayılı hərbi hospitala göndərirlər. Üzərində cərrahiyyə əməliyyatı aparılır. Sonra yenidən cəbhəyə qayıdır. Bu dəfə onu Liza Çaykina adına partizan briqadasına qərargah rəisi təyin edirlər...

İsmayıl alman faşistlərinin qarnizonlarına qarşı hücumlarda, körpülərin, kazarmaların partladılmasında, düşmən qatarlarının qəzaya uğradılmasında iştirak edir. Çox qısa bir vaxtda onun başçılıq etdiyi briqadanın fəaliyyəti almanları lərzəyə salmışdır. Buna görə də faşistlər məhz İ.Əliyevin briqadası ilə ayrıca vuruşmaq, haqq-hesab çəkmək üçün böyük qüvvə ayırırlar. Buna onların əsası da vardı. Nə az, nə də çox, düz 4 ay yarım İsmayılgilin partizan dəstəsi Moskva ətrafındakı iri yaşayış məntəqələri olan Qrişina, Xilkovo, İlino və digərlərini geri almış, Moskva cəbhəsinə doğru gedən körpüləri dağıtmışdılar. Dəstənin üzvlərinin sayı da hər gün artmaqda idi. Onun sırasında Qafqazdan, Ukraynadan, Uraldan, Orta Asiyadan, Moskvadan, Latviyadan, İvanovdan, Leninqraddan gəlmiş təcrübəli və cəsur döyüşçülər vardı. Partizanlar İsmayıl Əliyevə Çapayev deyə müraciət edirdilər. Bunun bir səbəbi də o idi ki, bizim kəşfiyyatçılar böyük igidlik göstərib, ağ atlı bir alman zabitini ələ keçirmişdilər. Həmin gündən qənimət götürülmüş ağ atı İsmayıl Əliyev minməyə başlamışdır. Və nəhayət, 1943-cü ilin aprel ayının 26-da, İsmayılın anadan olmasının 22 illiyi günündən 5 gün sonra alman generalı Kurt Şpeyman bütöv bir diviziyanı cəbhədən ayırıb partizanların üstünə göndərdi. İsmayıl dostları Volodya, Mişa, Luiza, Andrey, Saşa, Timofey, Sergey, Arkadi və başqaları ilə əl-ələ verib düz 20 gün ağır döyüşlər keçirdilər. Bir neçə dəfə düşmən təyyarələri partizanların məskunlaşdığı meşəni bombardman etmişdi. Sursat və silah da azalmışdı. Günlər ağır keçirdi. Partizanların azuqə qıtlığı da yaranmışdı. Belə bir vaxtda İsmayıl ruhdan düşmür, həmkarlarına və dostlarına ürək-



dirək verir, bəzən zarafatlar edərək deyirdi:

- Biz qalib gələndən sonra insanlara öz mübarizəmiz haqqında danışarıq. Deyərik ki, Qafqaz dağlarından gələn oğullar həyatlarından keçərək Vətən uğrunda mübarizə aparmışlar. Döyüşçülərdən heç birinin adı yaddan çıxmayacaqdır.

İsmayılın axırıncı sözü isə belə oldu:

- Dostlar, geriyə yol yoxdur. Biz necə olursa-olsun düşmən mühasirəsindən çıxmalıyıq. Bax, buradan Smeryel çayından mühasirəni yarıb Leninqrad partizanları ilə birləşməliyik. Yaxşı üzməyi bacaranlar bacarmayanlara mütləq kömək etməlidir.

Komandirin müraciəti partizanlara sanki yeni qüvvə verdi. Smeryelin üstünə hücum başlandı. Buzlu-bulanıq suya birinci olaraq İsmayıl özü girdi. Çayın ortasına çathaçatda açılan faşist atəşləri İsmayılı sahilə salamat çıxmağa qoymadı. Partizanlar onun cəsədini kənara çıxarıb, çox çətinliklə də olsa meşədə dəfn etdilər. Ən başlıcası isə bu oldu ki, komandirləri İsmayıl Əliyevin planı həyata keçdi, partizanlar mühasirədən çıxdılar və öz komandirlərini itirsələr də, almanların planı həyata keçmədi, onlar partizanları əbədi olaraq susdura bilmədilər.

Gənc yaşlarından əbədiyyət dünyasına qovuşan kapitan İsmayıl Əliyevin bacısı, Bakı məktəblərinin birində dərs hissə müdiri işləyən, 1941-45-ci illər Böyük Vətən Müharibəsində qələbənin 75 illiyi ərəfəsində köklü bir ailənin, qəhrəman nəslin davamçısı olan Rəna xanım dedi:

- Nə yaxşı ki, dünyada xeyirxah adamlar vardır. Kalinin vilayətinin ictimaiyyəti Vətən torpaqları uğrunda canlarını qurban verənlərin uyuduqları məzarlığa "Qardaşlıq" adı vermişlər. Onlar İsmayılı tez-tez anır, məzarı üstünə tər gül dəstələri qoyurlar. Bura məktəblilərin, cavanların, əmək və müharibə veteranlarının ziyarətgahına çevrilmişdir. Hamının sevimlisinə çevrilmiş qardaşımın qəbrini və göstərdiyi qəhrəmanlığı xatırladıqca bir el bayatısını yadıma salıram:

**Aşıq, aralı olum,**
**Qəlbi yaralı olum**
**Məzarında yer elə,**
**Mən də oralı olum.**

Vətən uğrunda, torpaq uğrunda canını fəda etmiş İsmayıl qardaşımı yada salanda qürur duyuram. Öz qəhrəmanlığı ilə xalqının şərəfini uca tutan İsmayıl həmişə xatirələrdə yaşayacaqdır.

**Çox sağ olsun Göyçay camaatı! Qardaşımın oxuduğu 9 nömrəli orta məktəb neçə illərdir ki, İsmayıl Əliyevin adını daşıyır. Döyüşdəki igidliyinə görə İsmayıl bir neçə orden və medalla təltif olunmuş, onun adı xalq arasında hörmətlə çəkilir. O, həmişə və hər yerdə gənclərimizə nümunə göstərilir.**

**Oqtay Əliyev**

Ədalət.- 2020.- 4 iyun. S. 4.